

AYGÜN SADİQ

# *DÜNYAYA MESAJ*

Dünya! Çiyinlərin qaldıra bilməz
Mənim haqq savaşım sənə yük olur!
Mənim mücadiləm - "arzuedilməz",
Səninsə susmağın rəzillik olur!

Durmusan önümdə küt ağac kimi,
Haqlı inadıma bir sözünmü var?
Qatili qoymusan başa - tac kimi,
Mənimsə qarşıma çəkmisən divar!

Dünya! Göz-qulağın bağlıdır bütün,
Durma lal vicdanla, bir kənara keç.
Çəkil də önümdən! Rəzil sükutun
Mənim savaşımı əngəlləməz heç!

Mənim əzəmətim - zəfərim sayda,
Türkün yüksəlişi yaxın gündədir.
Bütün xöşbəxtliklər - azadlıq boyda,
Bütün qələbələr qan rəngindədir!

# *TƏLƏS*

Tale mirzəsinin çəkdiyi xətlər
Ömrün alnımızda qırışlarıdır.
Göylərin fəryadı yağan yağışsa,
Qəlbin etirazı - göz yaşlarıdır.

Vəfasız dostları arxa bilərsən,
Sevincli günləri birgə bölərsən,
Çətin günün gələr, tərk edilərsən...
Sanma, hər kəs könül vəfadarıdır.

Haqq qatında gözəl ada layiq ol,
İnsanlıq dərsin al, əqlə malik ol,
Bir tək dostun qalıb, ona sadiq ol,
Qalanları xoş günün dostlarıdır.

Zamanı gözləmə ibadət üçün,
Ölüm qapısından keçərsən bir gün,
Peşmanlıq bürüyər qəlbi büsbütün,
Tələs, zaman keçir, ömür yarıdır.

# *YAZIRAM*

Beş gün ömür, o da dərddir sərasər,
Yüz kədərdən, yüz ələmdən yazıram.
Aç ürəyin qəm yükünü, şeirə sər,
Qəm əhliyəm, mən də qəmdən yazıram.

Kədər içrə keçir ömürdən günüm,
Tanrıya bəs niyə çatmır bir ünüm,
Cavan ikən cənnət idi tərənnüm...
İndi daha cəhənnəmdən yazıram.

Qəlb evimin içi qaranlıq, toran,
Ruhum gedib, cismim qalıbdır viran,
Məni məndə tapmaz axı axtaran,
Sənləşmişəm, daha səndən yazıram.

Sən gedəli adın gəzir sözümdə,
Qalmayıbdır tabi-təvan, dözüm də,
Bütün rənglər eyniləşdi gözümdə...
Sən rəngində bir aləmdən yazıram.

# *İKİ SÖHBƏT*

Ya Rəbb, qəbahətim boyumdan hündür,
Zaman da yetmədi, möhlət istəyəm.
Bir baxdım: dünyaya gəldiyim gündür,
Bir baxdım: ölümdən o tərəfdəyəm.

Ömür sarayımı buraxıb viran,
Əcəl taleyimin içindən keçdi.
İllər göz önündə əriyən zaman
Ürək fərq etməmiş, üzülməmişdi.

Qapımı zamansız döyəndə əcəl
Qalxıb təbəssümlə açdım üzünə.
Dedim: "Xoş gəlmisən, buyur, evə gəl,
Çox böyük yaxşılıq edirsən mənə".

Öncə, amiranə, qaba səs ilə:
"Səni aparmağa gəlmişəm, - dedi, -
Qaçmağı düşünmə, keçmisən ələ!"...
(Sonuncu cümləni çox ötkəm dedi).

Dedim: "Yanılırsan bu cür gümanda,
Çoxdan soyuyubdur dünyadan əlim.
Elə istəyirdim, yaxın zamanda
Həyatdan tam qopub Rəbbimə gəlim".

Həqiqət aradı mənim sözümdə,
Gözümə şübhəylə baxdı, dayandı.
Mən heyrət oxudum onun gözündə,
O da rəftarımı bir oyun sandı.

Soruşdu: "Bəs niyə bu fikirdəsən?
İnsanlar əcəlin əleyhinədir.
Sən adi adamdan uca yerdəsən,
Bunca soyuqluğun səbəbi nədir?"

Dedim: "Sorma bunu, yorğunam, inan...
Taleyim üzümə hey diş qıcadı.
Cavabım bəllidir yaşantılardan...
Mənim həyatımın zülümdür adı".

-Getdiyim evlərdə sevilmirəm heç,
Ömründən qovmağa çalışır hamı.
Yaman duyğulandım, günahımdan keç...
İlk dəfə görürəm səntək adamı.

Dedim: "Vaxt itirmə, arzuma yetir,
Artıq sevincimin səbəbi aydın.
Məni Aləmlərin Rəbbinə götür"....
Bircə an keçmədən səmalardaydım....

İndi qarşındayam
(Həyəcan bir az)....
Ölü sayılıram digər dünyada .
Nə olar, burdakı ömrümü xoş yaz,
Burda da zamanım getməsin bada...

## *OYUNCAĞI İTƏN UŞAQ KİMİYƏM*

Yenə küskün düşüb, sınıbdır ürək,
Oyuncağı itən uşaq kimiyəm.
Qədrimi bilənə çiçəkli yaztək,
Dəyər verməyənə sazaq kimiyəm.

Sevənlər ad qoyur - "həyat" - sevgiyə,
Axı heç yaraşmır bu ad sevgiyə,
Hüdudsuz hisslərə, azad sevgiyə
Barmaqlıqdan baxan dustaq kimiyəm.

Çalışdım, çatmadı idrakın əli...
Yoxmudur yolu ki, seçim əvvəli?
Sirli bir xaraba, köhnə tikili,
Ruhlar dolaşdığı otaq kimiyəm.

Əlini yelləyib gedir bu ömür...
Qəlbi parçalayır, didir bu ömür.
Nədir bu yaşayış? Nədir bu ömür?
Suallarla gələn qonaq kimiyəm.

Özümlə savaşa, yenməyə gəldim,
Birbaş Haqqa doğru yola düzəldim,
Yolçuluq çox şeyi öyrətdi, bildim...
Axdıqca arınan bulaq kimiyəm.

## *GÖTÜR QARANLIĞIN ƏLİNDƏN MƏNİ*

Götür qaranlığın əlindən məni,
Könlümə ən gözəl müjdəni sən ver.
Sevgi dünyasında tək dolanmayım,
Ayağım altında titrəməsin yer.

Bizli sabahlardı qəlbin arzusu,
Bütün xəyalların qəhrəmanı - biz.
Gerçək bir sevgidir, nağıl deyil bu,
Səmimi hisslərdir: təmizdən təmiz.

Ruhuma ən gözəl duyğunu yaşat,
Xöşbəxt sabahım ol, olma dünənim.
Mənə başqa seçim verməsin həyat,
Bir başqa istəyim olmasın mənim.

Ruhumu səmaya götürsün sevgin,
Atım sənsizliyi dərinliklərə...
Ayrılıq uzaqdan qoy həsəd çəksin,
Yetişə bilməsin biz olan yerə...

Sənli xəyallarım dərdlərə çətir,
Sevgin xilas edər ölümdən məni.
Gətir xoşbəxtliyi, ömrümə gətir,
Götür qaranlığın əlindən məni...